# Şanlı Zəfərimiz milli təhsilimizi yüksək hədəflərə yönləndirir

**Azərbaycanda həyata keçirilən davamlı və sistemli təhsil islahatları sahənin fəaliyyətinin müasir tələblər səviyyəsində yenidən qurulmasını təmin etmişdir. Yeni nəslin bilik-bacarıqlı və vətənpərvərlik ruhunda yetişdirilib-tərbiyəndirilməsi üçün təhsil sistemində gerçəkləşdirilən səmərəli layihələr ildən-ilə daha yüksək nəticələr əldə edilməsinə imkan yaradır. Azərbaycan Respublikası Elm və təhsil nazirinin müavini Muxtar Məmmədovla söhbətimiz də bu barədədir.**

*– Muxtar müəllim, Böyük qayıdışın ilk ünvanı olan Zəngilanın Ağalı "ağıllı kəndi"ndə ilk dərs ilinin sevincini hamılıqla yaşadıq. Qalib ölkənin şagird və müəllimləri üçün doğma yurdlarında ilk və əbədi səslənəcək zəng çalındı... Bu şanlı Zəfərin xalqımıza bəxş etdiyi növbəti qürur dolu anlar idi...*

– Həqiqətən, yeni tədris ilinin ilk günündə – 15 sentyabrda Azərbaycan təhsili üçün ən əlamətdar bir günə şahidlik etdik. Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi doğma torpaqlarımıza Böyük qayıdışın ilk ünvanı olan Ağalıda çalındı. Bu əlamətdar gündə ağalılı müəllim və şagirdlər öz doğma məktəblərinə sevinclə, qürurla, inamla qədəm basdılar, ölkəmizdə unudulmaz gün yaşandı.

Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun şücaəti ilə erməni işğalından azad olunmuş torpaqlarda həyat yenidən canlanır. 29 ildən sonra Ağalı kənd tam orta məktəbində dərs zənginin çalınması məhz şəhidlərimizin, qazilərimizin, Vətən müharibəsi iştirakçılarının hünəri sayəsində gerçəkləşib. Buna görə onlara minnətdarıq – şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfalar diləyirik.

Uzun illərdən sonra Ağalıda həyatın canlanması, məktəbin fəaliyyətə başlaması, qapılarını şagirdlərin, müəllimlərin üzünə açması tarixi uğur kimi olduqca qürurvericidir. Müasir infrastruktura malik olan Ağalı kənd tam orta məktəbi 360 şagird yerlikdir. Yeni məktəbdə 13 sinif otağı ilə yanaşı, fənn kabinetləri, laboratoriyalar, informatika kabineti, texniki otaqlar, tibb otağı, psixoloq otağı var. Bundan əlavə, kitabxana, oxu zalı, geniş və işıqlı akt zalı, məktəbin həyətində müasir tələblərə cavab verən idman meydançası mövcuddur. 2022–2023-cü tədris ilində Ağalı kənd tam orta məktəbində 65 şagird təhsil alır. Ağalıya köç davam etdikcə bu say da artacaq.

*– Bu gün işğaldan azad olunmuş torpaqlarımızda aparılan geniş quruculuq və bərpa prosesində yeni məktəb infrastrukturunun yaradılması prioritet istiqamətlərdəndir. Şübhəsiz, görülən işlər və hədəflər aydın və genişmiqyaslıdır…*

– Xəyanətkar qonşu dövlət Ermənistanın ölkəmizə qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu tamamilə dağıdılıb. Ümumilikdə, bu ərazilərdə olan 1107 ümumtəhsil müəssisəsi və 855 uşaq bağçası yerlə-yeksan edilib. Vətən müharibəsi dövründə Ermənistanın silahlı qüvvələri nəinki cəbhəboyu, eyni zamanda, hərbi əməliyyatlardan uzaq məsafədə yerləşmiş yaşayış məntəqələrimizə, məktəb infrastrukturuna da raket zərbələri endirmiş, təhsil müəssisələrimiz böyük dağıntılara məruz qalmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad olunmuş rayonlarımızda məktəblərin tikintisi işlərinə start verilib. Həmin ərazilərdə müasir infrastruktura malik yeni məktəb



binalarının təməli qoyulub, sürətli tikintisi aparılır. Məktəblər Azərbaycan təhsilinə əhəmiyyətli töhfə verən təhsil ocaqları kimi inşa olunur. Hazırda Şuşa şəhər 1 nömrəli və Ağdam şəhər 1 nömrəli tam orta məktəblərin tikinti işləri davam etdirilir. Hər iki məktəb 960 şagird yerlikdir. Bundan başqa, Füzuli şəhərində 960 şagird yerlik tam orta məktəbin və ilk peşə liseyinin tikintisinə start verilib.

Cari ilin mayın 10-da isə Füzulidə Peşə Liseyinin təməli qoyulub. Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməl qoyulma mərasimində iştirak ediblər. Cəbrayıl şəhərində 960 şagird yerlik akademik Mehdi Mehdizadə adına tam orta məktəb, Şuşa Real Məktəbinin tikinti-bərpa işlərinə isə başlanılacaq. Bundan əlavə, Kəlbəcər şəhərində 960 şagird yerlik, Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binalarının layihələndirilməsi və tikintisi, Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının, Laçın şəhəri, 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası həyata keçiriləcək.

*– Səngərdə qəhrəman, sinifdə nümunə olan müəllimlərimiz xalqımızın öyünc ünvanlarına çevrildilər. Gənclərimizin müəllim peşəsinə marağının artmasında bu mühüm amilin rolunu necə qiymətləndirirsiniz?*

– Qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsində qazanılan qələbədə həm də təhsil işçilərimizin böyük payı vardır. 44 günlük Vətən müharibəsində 760 təhsil işçisi düşmənə qarşı vuruşub. 20 təhsil işçisi döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Mülki şəraitdə düşmən zərbələrinə tuş gələn 10 şagirdimiz həlak olub, 60 təhsil müəssisəsi dağıntılara məruz qalıb.

Böyük Zəfər bir daha göstərdi ki, müstəqillik dövründə doğulan, böyüyən, məktəbi bitirən Azərbaycan gəncləri ölkənin ən ağır günlərində Vətən qarşısında öz borclarını verməyə, qəhrəmanlıq göstərməyə hazırdırlar. Bu mənada, əlbəttə ki, Böyük zəfər gənclərimiz üçün əsl vətənpərvərlik salnaməsi və igidlik məktəbidir. Qəhrəmanlıq salnaməmizin hər bir səhifəsi hazırda məktəblərimizdə şagirdlərə çatdırılır. Şübhəsiz ki, məktəb mühiti ölkəmizdə sağlam, vətənpərvər gəncliyin yetişdirilməsində xüsusi önəm daşıyır. Bu mənada orta məktəblərimizdə ötən ildən "Zəfər tarixi" kursunun tədrisinə başlanılması da vətənpərvər gəncliyin formalaşmasına xidmət edir.

Bundan əlavə, elm və təhsil nazirinin müvafiq əmri ilə xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilmiş Şuşa qalibiyyətinin əhəmiyyətinin ölkənin ümumi təhsil müəssisələrində təbliğini gücləndirmək və 2022-ci ilin "Şuşa ili" elan edilməsinə dair dövlət başçısının 5 yanvar 2022-ci il tarixli 3096 nömrəli sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə ölkənin ümumi təhsil müəssisələrinin IX–XI sinif şagirdləri arasında "Əziz Şuşa, sən azadsan!" mövzusunda inşa müsabiqəsinin keçirilməsinə qərar verilib.

Ölkə başçısı cənab İlham Əliyev gənc nəslin vətənpərvər ruhda tərbiyəsi ilə bağlı məktəblərimiz qarşısında aydın hədəf qoyub: "Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə, vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar". Bu baxımdan, hazırda Azərbaycan məktəbi, müəllimi dövlət başçısının bu çağırışına cavab olaraq özünün fəaliyyətində yeni nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verməkdədir.

*– Müəllimlər sertifikasiyadan keçərək bilik və bacarıqlarını nümayiş etdirir, sosial rifahlarını artırırlar. Bu proses təhsilimizə hansı uğurlar qazandıracaq?*

– Yeni dünya reallıqları digər peşələrdə olduğu kimi, müəllimlik peşəsində də gələcəyin hərtərəfli inkişaf etmiş, müasir bilik və bacarıqlara malik yeni nəslin formalaşdırılması kimi məsuliyyətli bir missiyanı öz üzərinə götürmüş pedaqoji heyətdən yüksək bacarıqlar, effektiv tədris bacarıqları və yanaşmalar tələb edir. Bu mənada istər gənc, istərsə də təcrübəli müəllimlərin yeni tendensiyalara, dəyişikliklərə, yeni tədris metod və texnologiyalara uyğun bilik və bacarıqlarını artırması qaçılmazdır.

Buna görə də "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırılma Qaydası"na uyğun olaraq cari ilin 30 avqust – 1 sentyabr və 13 sentyabr tarixlərində ölkəmizdə sertifikatlaşdırmanın test mərhələsi keçirilib. Ümumi təhsil müəssisələrində işləyən müəllimlərin peşəkar səviyyəsinin müəyyən edilməsinə xidmət edən sertifikatlaşdırma prosesinə birinci mərhələdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron–Xızı, Quba–Xaçmaz və Gəncə–Daşkəsən Regional Təhsil idarələrinə tabe olan, həmçinin Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimləri cəlb olunub.

Test mərhələsində ümumilikdə 11 min 133 nəfər təhsilverən iştirak edib və onlardan 8 min 766 nəfər təhsilverən müəyyənləşdirilmiş keçid balını toplayıb. 8 və 12–19 sentyabr tarixlərində isə sertifikatlaşdırmanın müsahibə mərhələsi keçirilib. Həmin mərhələdə 8 min 743 nəfər təhsilverən iştirak edib və onlardan 8 min 712 nəfəri uğur qazanaraq sertifikatlaşdırmadan keçmiş hesab olunub. Sertifikatlaşdırmadan keçmiş 3 min 122 təhsilverən vəzifə maaşına 35 faiz əlavə, 5 min 590 təhsilverən isə 10 faiz əlavə alacaq. Sertifikasiyadan keçə bilməyənlər üçün isə dəstək tədbirləri həyata keçiriləcək.

Qeyd edim ki, təhsilverənlərin sertifikatlaşdırılmasının keçirilməsində məqsəd ümumi təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması, onların peşəkar inkişafına nail olmaq və təlim ehtiyaclarını öyrənməkdir.

*– Keyfiyyətli müəllim kadrları hazırlığı çağdaş dövrümüzdə diqqət mərkəzində saxlanılan əsas məsələlərdəndir. Bu sahədə gözləntilər və hədəflər...*

– Əlbəttə, keyfiyyətli müəllim hazırlığı Azərbaycan təhsil sistemi üçün də ən prioritet məsələlərdən biridir. Bu məsələnin aktuallığı müasir dövrün gündən-günə qloballaşan problemləri və onların həllinin təxirəsalınmazlığı ilə bağlıdır. Dünyanın istənilən ölkəsində keyfiyyətli müəllim hazırlığı bütün kəskinliyi ilə durur. Məlum olduğu kimi, BMT-nin IV Dayanıqlı İnkişaf Məqsədlərindən biri 2030-cu ilə qədər dünya ölkələrində "Keyfiyyətli təhsili"in təmin edilməsidir.

Bu hədəfə nail olmaq milli təhsil sistemlərindən təhsilverənlərin pedaqoji səriştə və bacarıqlarının dövrün çağırışlarına adekvat olaraq artırılmasına ciddi önəm verməyi tələb edir. Bu məsələnin aktuallığı və həllinə yönəlik tədbirlər ölkə rəhbərliyi tərəfindən qəbul olunmuş bir sıra dövlət sənədlərində də öz əksini tapmışdır. Şübhəsiz ki, müəllim nüfuzunun yüksəlməsinə xidmət edən tədbirlərin əməli nəticələri özünü onların sosial-rifah halının yaxşılaşdırılması, əməkhaqlarının artırılmasında göstərir.

Məlumat üçün qeyd edək ki, ötən 5 ilin statistikasına baxsaq görərik ki, müəllimlik ixtisasını seçən 500 və daha artıq bal toplayan abituriyentlərin faizi ilbəil artır. Təkcə bu il 1300-ə yaxın yüksək ballı gənc müəllim olmaq üçün universitetlərə qəbul olmuşdur. Bu il birinci dəfədir ki, Bakı Dövlət Universitetinin riyaziyyat müəllimliyi ixtisasına keçid balı hüquqşünaslıq ixtisasından daha yüksəkdir.

Son olaraq qeyd edim ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına uyğun olaraq, XXI əsrin tələblərinə uyğun təhsilin təmin olunması məqsədilə 2026-cı ilin sonuna 137 min nəfərlik heyətin sertifikatlaşma proqramında iştirakının təmin edilməsi, 68 min nəfərlik heyətin diferensial əməkhaqqı sisteminə cəlb olunması, ümumi təhsil sistemində təhsilin keyfiyyətinin artırılması və idarəetmənin təkmilləşməsi qarşıda duran əsas hədəf və vəzifələrdəndir.

*– Milli təhsilimizə cari tədris ilində növbəti uğurlar arzulayırıq. Maraqlı söhbətə görə təşəkkür edirik.*

**Söhbəti çapa hazırladı:**
**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**